**Xocalı faciəsi xalqımıza qarşı analoqu olmayan soyqırımıdır**

Xocalı soyqırımının baş verməsindən artıq 18 il ötür. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri, Dağlıq Qarabağ ərazisindəki ermənilərin qeyri-qanuni silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və hərbi texnikasının bilavasitə iştirakı ilə Azərbaycanın ayrılmaz hissəsi olan qədim Xocalı şəhərini zəbt edərək, xalqımıza qarşı analoqu olmayan soyqırım aktı həyata keçirib.

**YAP Səbail rayon təşkilatının aparat rəhbəri Həsən Tağıyev:**

- Xocalı faciəsi Azərbaycan xalqının tarixində qara bir ləkədir. Müstəqilliyimizi bərpa etdiyimiz dövrdən Azərbaycan cəmiyyətində böyük çaşqınlıq əhval-ruhiyyəsinin olması, bu faciənin baş verməsinə gətirib çıxarıb. Həmin dövrdə Azərbaycanın dövlət rəsmilərinin və eyni zamanda, siyasi hakimiyyətə can atan müxalifətin mənəvi təqsiri də az deyil. Torpaqlarımızın böyük bir hissəsinə iddia edən Ermənistan tərəfi xalqı qorxutmaq üçün, eyni zamanda, işğal siyasətini daha rahat həyata keçirmək üçün məqsədli şəkildə bu faciəni həyata keçirdi. Bir gecə ərzində kiçicik dinc şəhərə soxuldu, ilk növbədə, əlsiz-ayaqsız əhalini, qocaları, qadınları, uşaqları qətlə yetirdilər. Bir qismini isə şikəst hala salaraq, həmin vəziyyətdə Azərbaycanın digər rayonlarına keçməsinə şərait yaratdılar ki, bu, bir əsas yaratsın. Qeyd edim ki, həmin faciənin lentə alınmış foto və videoçəkilişləri çox böyük dəhşət yaradır. Nə qədər insansevməz bir xalq olmalısan ki, dinc əhaliyə qarşı belə bir qətliamı törətməkdə maraqlı olasan. Bu, düşünülmüş bir siyasət idi. Təsadüfi deyil ki, bu yaxınlarda ermənilərin milli ideoloqlarından sayılan Z.Balayan öz kitabında Xocalı soyqırımında bilavasitə iştirak etdiyini, 13 yaşlı oğlan uşağının zülmlə öldürdüyünü etiraf edib və bundan da həzz aldığını bildirir.

Faciə böyükdür, həmin çəkiliş və şəkillərə sakit, emosiyasız baxmaq mümkün deyil. Ancaq ermənilər bir məsələdə yanılırlar ki, bu qətliam Azərbaycan xalqını qorxutmadı, erməni amili qarşısında geri çəkilməyə məcbur etmədi, əksinə, xalqımızı daha da mətinləşdirdi. Xalq bu faciəni törədənlərdən və bu siyasəti yeridənlərdən qisas almaq ruhu ilə doldu. Məhz həmin dövrdən başlayaraq, bu faciə Azərbaycanda dövlət səviyyəsində qəbul edildi. Bu, tariximizin, təqvimimizin qara bir günüdür, Fevralın 26-na bir müddət qalmış ölkə, ayrı-ayrı şəhər və yaşayış məntəqələrində bu faciənin keçirilməsi ilə bağlı geniş tədbirlər keçirilir. Bu gün Xocalı faciəsini tanımıram deyən, ona biganə qalan azərbaycanlı yoxdur. Qeyd etmək lazımdır ki, bu, təkcə 9 milyon əhali tərəfindən deyil, Azərbaycandan kənarda da kifayət qədər anılır. Azərbaycan diasporunun, xaricdəki səfirliklərin, diplomatik nümayəndələrimizin köməyi ilə ayrı-ayrı xarici ölkələrdə tədbirlər keçirilir. Universitetlərdə məlumatlar yayılır, KİV-lərdə bu faciə ilə əlaqədar materiallar verilir, faciənin tanıdılması, bu faktın baş verməsi istiqamətində, bu faciəni törədənlər barəsində beynəlxalq aləmdə rəy yaradılmasına səy göstərilir. Azərbaycan parlamenti xarici ölkələrin parlamentlərinə müraciətlər göndərir, həmin faciə ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırır. Yəqin ki, bu dəfə də belə olacaq. Biz həmin faciəni bütün dünyanın tanımasına gətirib çıxaracağıq.

**YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı:**

- Düz 18 il əvvəl - 1992-ci il fevralın 26-da erməni işğalçıları xalqımıza qarşı misli görünməmiş cinayətə əl atdılar. Soyuq qış günündə Xocalıya hücum edən ermənilər əliyalın, heç bir silah-sursatı olmayan əhaliyə divan tutdular. Yüzlərlə soydaşımızı - qadınları, qocaları, uşaqları amansızcasına qətlə yetirdilər. Bu, azmış kimi, qəddar düşmən qətlə yetirilən soydaşlarımızın cəsədləri ilə insanlığa sığmayan bir şəkildə rəftar etdi - körpələrin, qocaların gözləri çıxarıldı, sifətləri tanınmaz hala salındı. Faicənin ildönümü ilə bağlı hər il respublikamızın bütün regionlarında, eyni zamanda, dünyanın hər yerində geniş tədbirlər keçirilir, bəyanatlar, müraciətlər qəbul edilir, erməni işğalçılarının xalqımıza qarşı edilən cinayətləri bütün dünya ictimaiyyətinə çatdırılması üçün yeni-yeni saytlar açılır.

Çünki bəşər tarixində ən dəhşətli soyqırım olan Xocalı faciəsi xalqımızın tarixinə qanlı hərflərlə yazılmış bu olayı heç zaman unudula bilməz. Ermənilərin uzun əsrlər boyunca türklərin başına gətirdikləri dəhşətli faciələri xarici tədiqatçılar da təsdiq edirlər. Xocalıda baş verənlər isə, şahidlərin sözlərinə görə, misli görünməyən insan qırğını idi. Rusiyanın 366-cı motoatıcı diviziyasının iştirakı ilə həyata keçirilən bu qırğın ermənilərin etnik təmizləmə siyasətinin aşkar göstəricisidir. Buna görə də xalqımız tarix boyunca başımıza gətirilənlərdən xəbərdar olmalı, tarixi gerçəklikləri bilməlidir. Çünki tarix heç nəyi gizlətmir, gec-tez hər şey aşkara çıxır. Xocalı soyqırımı özünün dəhşətləri ilə yaddaşlarda qalacaq və qalmalıdır da. Azərbaycanda yetişməkdə olan gənc nəsil xalqımızın başına gətirilən faciələrdən xəbərdar olmalıdır. Qətliamın şahidləri indi də yaşamaqdadır. Onlar xatirələrini danışarkən, dəhşətdən insanın damarlarında qanı donur. Bunları unutmağa bizim haqqımız varmı? Bu bir həqiqətdir ki, Azərbaycan xalqının başına gətirilən Xocalı faciəsi bəşəri dəyərlər və beynəlxalq hüquq normaları ilə daban-dabana ziddiyyət təşkil edir. Hesab edirəm ki, bu faciənin dəhşətlərini unutmaq mümkün deyil. Qətliamın köçürüldüyü lentlər saxlanılır. Bu kadrlara baxdıqca ermənilərin türk qanına necə susadığının şahidi oluruq. Həqiqətən də, ermənilər türk qövmünə qarşı düşmənçilik mövqeyindədirlər. Bunun isə tarixi kökləri olduqca qədimdir. Ümumiyyətlə, türk dünyasının inkişafını istəməyən ermənilər bizə qarşı informasiya müharibəsində əllərindən gələni edirlər. Lakin bizim imkanlarımız da məhdud deyil. Biz təbliğatı gücləndirməklə erməni lobbisinin yalan və iftiralarının qarşısını ala bilərik.

**RƏFİQƏ KAMALQIZI**

**Səs.- 2010.- 24 fevral.- S. 6.**